**Dövlət Statistika Komitəsində "Qiymətlərin qeydiyyatı işinin təşkilinə dair" seminar-müşavirə keçirilmişdir.**



18-19 dekabr 2013-cü il tarixlərində Qiymət statistikası şöbəsinin təşəbbüsü ilə "Qiymətlərin qeydiyyatı işinin təşkilinə dair" Bakı şəhərində seminar-müşavirə keçirilmişdir. Seminar- müşavirədə yerli statistika orqanlarının qiymət qeydiyyatı üzrə mütəxəssislərinin iştirakı təmin olunmuşdur.

Yeni ilə keçidlə əlaqədar olaraq seminar-müşavirədə istehlak səbətinə daxil olan mal və xidmətlərin yeni siyahısına dair geniş məlumat verildi və sənaye məhsulları, kənd təsərrüfatı məhsulları, tikinti işləri (xidmətləri) və mənzil bazarında qiymətlərin qeydiyyatı, eləcə də ilkin məlumatların işlənməsinin təşkili və digər məsələlər hazırlanmış slaydların köməyi ilə ətraflı izah olundu.

Seminar-müşavirədə istehlak qiymətləri indeksinin geniş izahı, məlumat bazasının yenilənməsi və qiymətlərə dair məlumatların əldə edilməsinə dair metodoloji tövsiyyələr verilmişdir. Həmçinin "istehlak səbəti" nə daxil olan mal və xidmətlərin seçilməsi, sayı və hər bir ayrıca şəhər və rayonların ərazisində mövcüd olan mal və xidmətlərin qeydiyyatdan kənarda qalmamağı və bunun üçün ticarət məntəqələrinin seçiminin düzgün aparılmasının vacibliyindən danışıldı.



Bundan əlavə qiymətlərin düzgün qeydiyyatının aparılmasından, ölçü vahidlərinin mağazadakı ölçü vahidləri ilə eyni olmasından, müşahidə blankında məhsulların səciyyəvi xüsusiyyətlərinin ətraflı və aydın yazılmasından, ərzaq məhsullarının, qeyri-ərzaq məhsullarının qiymətlərinin və xidmət tariflərinin qeydiyyatının vaxtının təlimata uyğun, düzgün seçilib həyata keçirilməsindən, məhsul çeşidlərinin seçilməsi qaydaları, məhsul çeşidinin ticarət obyektindən yoxa çıxması, ticarət məntəqələrində qiymətlərin qeydiyyatı zamanı yaranan problemlər, qeyri-ərzaq məhsullarının səciyyəsinin dəqiq göstərilməməsi, dövlət tərəfindən tənzimlənən tariflərin düzgün qeyd olunmaması və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı və bu sahədə qiymət qeydiyyatçılarına təlimatlar verildi.




Seminar-müşavirədə istehsalçı qiymətləri müşahidəsi və ilkin qiymət məlumatlarının giriş proqramına daxil edilməsinə dair məlumat verildi. Bu sahədə qiymətlərin qeydiyyatı işini təkmilləşdirmək məqsədilə ilin əvvəlində müşahidəyə daxil ediləcək məhsulların seçilməsi və qeydiyyatının qənaətbəxş aparılması, hesabatlarda tələb olunan göstəricilərin müəssisələrə mütəmadi izah olunması sahəsində işin gücləndirilməsinin vacibliyi qeyd olundu. İstehsalçı qiymətləri sahəsində hesabat göstəriciləri ayrı-ayrılıqda izah olundu, statistik təsnifatlardan istifadənin zəruriliyi bildirildi və hesabatların doldurulması zamanı yaranan suallara aydınlıq gətirildi.